*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 oktyabr 2016-cı il № 79 (2094) Qiymıəti 25 qəpik


## Rəsmi xronika

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Yeni üfüqlərə qucaq açmaq" devizi altında keçirilən 23-cü Dünya Enerji Konqresində iştirak edib. Dövlətimizin başçısı bu tədbirdə çıxış edərək bildirib ki, belə bir mötəbər tədbirin Türkiyədə keçirilməsi çox əlamətdar hadisədir.*

*"Biz bir çox önəmli enerji layihələrimizi Türkiyə ilə bərabər icra edirik və bu enerji layihələri dünya üçün böyük əhəmiyyət daşıyır. Onu qeyd etməliyəm ki, dünyanın neft tarixi Bakıdan başlayır. XIX əsrin ortalarında dünyada ilk dəfə olaraq Bakıda sənaye üsulu ilə ilk neft çıxarılıdı. Ondan yüz il sonra ilk dəfə dənizdə neft Azərbaycan neftçiləri tərəfindən çıxarılmışdır. Müstəqilliyimizin ilk illərində Azərbaycan ilk dəfə olaraq xarici neft şirkətlərini Xəzər dənizinə dəvət etmiş, "Əsrin kontraktı" imzalanmış, "Azəri-Çıraq-Günəşli" neft yataqları işə düşmüşdür. Bu yataqlar dünya miqyasında ən böyük neft qaynaqlarından biridir və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafı başlamışdır."*

*Azərbaycan Prezidenti daha sonra vurğulayıb ki, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. "Bu gün ölkələr çalışırlar ki, öz təbii resurslarını müxtəlif yollarla dünya bazarlarına çıxarsınlar. Ancaq təbii qaynaqlarla zəngin olmayan ölkələr isə çalışırlar ki, onlara resurslar müxtəlif yerlərdən gətirilsin. Azərbaycan bu istiqamətdə də önəmli addımlar atmışdır və həm nefti, həm qazı şaxələndirilmiş yollarla dünya bazarlarına çıxarır."*

**AZƏRTAC-ın materialları əsasında**

General-polkovnik Zakir HƏSƏNOV:

# Düşmənin növbəti təxribatına cavab daha sarsıdıcı olacaq

## Cəbhə bölgəsində olan Müdafiə naziri artilleriyaçıların döyüş hazırlığını yoxlayıb



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, cəbhə bölgəsində olan Müdafiə Nazirliyinin rəhbərliyi artilleriyaçıların döyüş hazırlığını yoxlamaq məqsədilə ön xətdə yerləşən artilleriya hərbi hissə və bölmələrində olub.*

Raket və artilleriya qoşunları bölmələrinin şəxsi heyəti ilə görüşən nazirliyin rəhbərliyi vəziyyətlə yerində tanış olaraq onların döyüş hazırlığını, döyüş vəziyyətində tətbiqini, idarəetmə fəaliyyətini və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini yoxlayıblar.

Müdafiə naziri artilleriya bölmələri tərəfindən real döyüş şəraitinə uyğun tapşırıqların icrası ilə bağlı müvafiq tapşırıqlar verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində olaraq ön xətdə xidmət edən şəxsi heyətlə görüşüb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyət qarşısında çıxış edərək bildirib:

"Azərbaycanın səylərinə baxmayaraq, Ermənistanın hərbi-siyasi rəhbərliyi münaqişənin həlli istiqamətində heç bir müsbət addım atmır. Düşmənin qeyri-konstruktiv mövqeyinə görə danışıqlarda irəliləyiş əldə olunmur, beynəlxalq hüquq pozulur. Ali Baş Komandanın qeyd etdiyi kimi, Ermənistan öz çirkin taktikasını işə salaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın, vaxt uzansın. Biz buna imkan verməməliyik və bu münaqişə tezliklə həllini tapmalıdır.

Cəbhə xəttində düşmənin təxribatları davam edir və daim artmaqdadır. Ordumuz bu təxribatların qarşısını qətiyyətlə alır və daha sərt cavab tədbirləri həyata keçiriləcəkdir.

Ermənistanın nümayiş etdirdiyi raketlərin taktiki-texniki xüsusiyyətləri barədə tam məlumatımız var. Bu bölgədəki hərbi balansı düşmənin xeyrinə dəyişməyib. Biz bütün istiqamətlərdə tam üstünlüyə nail olmuşuq. Düşmən tərəfinin istifadə edə biləcəyi bir neçə qurğuya cavab olaraq isə Silahlı Qüvvələrimiz sərəncamındakı minlərlə raketlərdən, döyüş vasitələrindən cavab verməklə həmin raketləri vura bilməyə və düşmənin bütün hərbi infrastrukturunu məhv etməyə qadirdir. Ermənilərin həmin raketlərdən istifadə barədə səsləndirdiyi hədələr isə uydurmadan başqa bir şey deyildir.

Aprel döyüşləri qarşı tərəf üçün bir dərs olmalı idi. Lakin görünür onlar bu zərbədən nəticə çıxarmayıblar. Düşmənin növbəti təxribatına veriləcək cavab daha dağıdıcı və sarsıdıcı olacaq, onu tam məhv edəcəkdir".

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri təlim-atış mərkəzində olub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, döyüş bölgəsində olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi qulluqçuların atəş və taktiki hazırlıq məşqləri keçdiyi təlim-atış mərkəzində olub.

Müdafiə nazirinə poliqon haqqında məlumat verilərək bildirilib ki, ərazidə cəbhə xəttindəki vəziyyətin modelləri vasitəsilə real döyüş şəraitinə uyğun təlimlərin keçirilməsi, düşmənin təxribat-kəşfiyyat cəhdlərinin qarşısının alınması, əks tədbirlərin görülməsi və digər praktiki məşqlərin keçirilməsi üçün şərait yaradılıb.

Poliqonda şəxsi heyət silahlanmada olan atıcı silahlar, minaatanlar və qumbaraatanlardan istifadə etmək bacarığını daha da təkmilləşdirmək və təcrübələrini artırmaq imkanı əldə edir.

Müdafiə naziri atış, taktiki sahə, kəşfiyyat, snayper hazırlığı kursu və digər təlim nöqtələrində praktiki hazırlıq çalışmalarını izləyib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Hazırlıqlı əsgər sabahın məsuliyyətli vətəndaşıdır

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissələrin şəxsi heyətlə iş üzrə komandir müavinlərinin toplantılarından birində çıxışı zamanı əsgəri xidmət dövründə gəncləri həm Vətəni qorumağa qadir hazırlıqlı döyüşçülər, həm də cəmiyyətin etibarlı qurucuları kimi yetişdirməyin mühüm bir vəzifə olduğunu vurğulamışdı. Doğrudan da, ordu sıralarında xidmət edən hər bir gənc vətəndaşımız yaranmış imkandan faydalanaraq doğulub boya-başa çatdığı Vətəninin müsəlləh əsgəri kimi formalaşmalıdır. Digər tərəfdən, ordunun vacib həyat məktəbi olduğunu dərk edərək müstəqil yaşam tərzi üçün zəruri olan xüsusiyyətlərə alışmalıdır.*

Cəbhə xəttində yerləşən hərbi bölmələrimizdən birində olarkən şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit - kapitan Tural Qocayevlə söhbətimizdə də bu vacib məsələnin üzərində dayanırıq. Fikir və mülahizələrini bölüşən zabitə görə, güclü ordumuzun əsgərlərini yüksək hərbi səriştəyə malik əsgər kimi hazırlamaq bu gün qarşıda dayanan ən mühüm vəzifədir. "Gənclər ordu sıralarına gəlirlər və xidmət müddətində döyüş vərdişlərinə, nizam-intizamlı olmağın, qayda-qanuna riayət etməyin sirlərinə yiyələnirlər. Bu, onların ilk növbədə hazırlıqlı əsgər olmaları üçün vacibdir. Həm də əsgərlərimizi həyatda mətin, iradəli, dözümlü və prinsipial olmağa alışdırırıq. Keçirilən məşğələlərdə əsgərlərimizdə ordu həyatına dərindən maraq yarandığını hiss edirəm. Mənə elə gəlir ki, döyüş növbətçiliyində olan əsgərlərimizlə ayrı-ayrılıqda söhbət etsəniz, bütün bunların şahidi olacaqsınız."

Zabitlə birgə səngərlərə üz tuturam. Hər addımda qürurlu görkəmləri ilə diqqətimi çəkən Vətən oğulları ilə görüşürəm. "Vətənimi qorumaqdan qürurluyam!" kəlməsi özünü təqdim edən əsgərin dilində səslənəndə, doğrudan da, bu gün vətənpərvər gənclərin torpaqlarımızı etibarlı qoruduğuna əmin oluram.

Tovuz rayonundan olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Kənan Nuriyevi yenidən ordu həyatına qaytaran əsas səbəb erkən yaşlarından düşmənin torpaqlarımıza basqınının şahidi olmasıdır. Onun doğulduğu Çeşməli kəndi də Ermənistanla sərhədə yaxın ərazidə yerləşdiyinə görə, ağır müharibə illərində balaca Kənanın hər səhəri güllə səsiylə açılıb. Düşmənə intiqam hissi ilə cəbhə bölgəsində əsgərliyini keçirib və onda hərbi peşəyə dərin maraq o vaxtdan yaranıb.

- Bir döyüşçü kimi qarşında dayanan vəzifənin məsuliyyətini necə hiss edirsən?

- Bu gün müasir gəncliyin bir nümayəndəsi kimi mən də taleyimi hərbə bağlamaqda düzgün addım atdığımı başa düşürəm, - deyir kiçik çavuş. - Sıralarımızda xidmət edən əsgərlərin keçirdiyi hissləri yaxşı başa düşürəm, çünki 3-4 il əvvəl onlar kimi mən də əsgər olmuşam. Gənclərdə hərbə marağın yaranması üçün ilk növbədə onlarda Vətənə, elobaya bağlılıq olmalıdır. Gərək hər bir gəncimiz vətəndaş silah və texnikanı idarə etməyi bacaran hərbçinin də qəlbi bu sevgi ilə döyünür. Bundan əlavə, əsgərlərimizə mərdlik, qəhrəmanlıq kimi mənəvi dəyərlər aşılayırıq və bu məqsədlə onlara yaxın tariximizin, aprel döyüşlərinin qəhrəmanlarını tanıdırıq. Qəhrəmanlıq gənclərin vətənpər-



olmağın məsuliyyətini dərindən dərk etsin. Yəni, bir vətəndaş olaraq bu yurdun qoruyucusu olmağı, işğalda qalan əzəli torpaqlarımızı yağılardan azad etmək vəzifəsini düşünməlidir.

- Kiçik komandir olaraq tabeliyində olan əsgərləri hazırlıqlı döyüşçü kimi formalaşdırmaq üçün onlara hansı keyfiyyətləri aşılayırsınız?

- Döyüşçünün birinci silahı Vətən sevgisidir. Ən müasir vərlik ruhunda tərbiyəsi üçün ən dəyərli örnəkdir. Məsələn, dünənə kimi ucqar rayon, kənd sakini olan bir fədakar döyüşçümüzü bu gün bütün Azərbaycan tanıyırsa, bu hər kəsə nümunə olmalıdır.

Səngərləri gəzib döyüşçülərlə ünsiyyət yaratmağa imkan tapıram. Hər biri ilə söhbətimdən qəlbim qürurlanır. Öyrənirəm ki, Səbuhi Abdullayev yaxın günlərdə əsgəri xidmətini başa vurub doğmalarının yanına qayıdacaq. Tərtər rayonundan olan döyüşçü ordu həyatının onun taleyindəki rolundan həvəslə söhbət açaraq deyir:

- Bu gün Vətənimizin bir döyüşçüsü kimi yetişməyim üçün öncə vətənpərvər komandirlərimə və aylar, həftələr, günlər ərzində torpaqlarımızın keşiyində çiyin-çiyinə dayandığım silahdaşlarıma borcluyam. Hərbi xidmət dövründə alışdığım bir çox vərdişlərə görə əminəm ki, gələcəkdə müstəqil yaşamaq mənə çətin olmayacaq. Bir həqiqəti başa düşdüm ki, ordu həyatı, sözün həqiqi mənasında, bir kişilik məktəbidir və bu yolda sınaqlarda bərkidiyim üçün özümü xoşbəxt sanıram.

Zaqatala rayonundan olan əsgər Natiq Mahmudov yeddi aydı xidmət edir. Gənc əsgərlərin təlim müddətini keçdikdən sonra hazırda xidmət etdiyi hərbi bölməyə göndərilib. O da digər yoldaşları kimi cəbhə xəttində xidmət etməkdən qürurlu görünür. "Bu mövqelər vaxtilə düşmən tapdağında olub. Sonralar ordumuzun güclü müqaviməti ilə üzləşən düşmən buradan geri çəkilməyə məcbur edilib. Komandir və zabitlər bizə həmin illərin döyüş tarixindən danışaraq, Azərbaycan əsgərinin gücü ilə bu ərazilərin işğaldan azad edildiyini iftixarla bildirirlər. Əgər yenidən döyüş əmri verilərsə, mən də əsgər dostlarımla birgə döyüşməyə hazıram."

Səngər boyu başqa əsgərlərlə də görüşüb arzu və istəklərini, fikirlərini qələmə alıram. Baş leytenant Elmin Aslanovun komandiri olduğu bölmənin döyüşçüləri ilə söhbətlərim məndə xoş ovqat yaradır. Vətənimizi qoruyan belə oğulların hesabına torpaqlarımızın düşmən tapdağından azad ediləcəyinə inamım daha da artır. Elə bu inam hissi ilə onlardan ayrılıram...

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu"**

# Təlim döyüş vərdişlərini möhkəmləndirir

*Mayor Süleyman Vəliyevlə əsgərlərin təlim yerinə yollanırıq. Məşğələ keçirilən yer qərargaha o qədər də yaxın deyil. Yol boyu zabitlə söhbət etməyə, ondan təlim və tədrislə bağlı müfəssəl bilgilər əldə etməyə imkan tapıram. Süleyman hərbi xidmətinin çoxunu cəbhə bölgəsində keçirib.*

Həmsöhbətim lazımi döyüş təcrübəsinə malikdir. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığında yüksək bacarıq nümayiş etdirir. Hər bir əsgərin taktiki hazırlığı baxımından onun yetərli əməyi şübhəsizdir. O, tez-tez bölmələrin çölsəhra məşğələlərində olur, əsgərləri peşə vərdişlərini artırmağa sövq edir.

Hər bir zabitin xidmət etdiyi hərbi hissənin relyef şəraitinə yaxından bələd olması vacibdir. Belə ki, düşmənlə təmas xəttində yerləşən bölmələrin əsas və ehtiyat mövqelərə çıxışı var. Hər hansı bir təhlükənin baş verdiyi halda döyüşçülərin toplaşma yerlərinə vaxtında çıxması gərəkli şərtlərdəndir. Zabit S.Vəliyev deyir:

- Döyüşçülərin ərazi ilə tanışlığı ən vacib səbəblərdən biridir. Bu məqsədlə bölmələrə yeni qəbul edilən hərbi qulluqçuları yerləşdikləri mövqelərlə tanış edirik. Onlara düşmənin hansı istiqamətdə yerləşdiyini, minalanmış sahələri və hərəkət marşrutunu izah edirik.

Zabit qeyd etdi ki, əsgərlər müntəzəm taktiki təlimlər keçir, döyüş atışlı çalışmaları yerinə yetirirlər. "Bölmələrin təlim keçməsi üçün belə bir ərazinin seçilməsi heç də təsadüfi deyil. Bura cəbhə xəttinə yaxın olduğuna görə düşməndən təhlükə hiss olunduğu halda ön mövqedəki döyüşçülərə vaxtında dəstək ola bilmək baxımından çox əlverişlidir."



Məşğələ yerində isə ilk görüşdüyümüz baş leytenant Sahil Əhmədli oldu. Vaxtilə oxuduğu ali hərbi məktəbdə qazandığı hərbi bilikləri bu gün tabeliyindəkilərə yorulmadan aşılayır.

- Burada hazırlanmış manеələr zolağı hər bir əsgərin ilk "döyüş meydanı" sayılır, - deyə gənc zabit bildirir. - Bu meydandan üzüağ çıxan əsgər gələcəyin təcrübəli döyüşçüsüdür. Əsgərlər maneələri qısa sıçrayışlarla, iti sürətlə dəf etməyi bacarırlar. Onlar yaxşı bilirlər ki, təlimdə tər töksələr, döyüşdə qan tökməzlər."

Zabitə görə, cəbhə bölgəsində xidmət etməyin özünəməxsus çətinlikləri olmasına baxmayaraq, döyüş vərdişlərinə təlimlərdə alışan əsgərlər sonralar heç bir çətinliklə üzləşmirlər. Onlar çətin şəraitə uyğunlaşdıqları üçün ön xətdə xidmət etmələri də asanlaşır.

Məşğələ yerində görüşdüyüm əsgərlərlə söhbətimdə hiss edirəm ki, onların başlıca məqsədi erməni tapdağı altında olan ərazilərimizi tezliklə azad etməkdir. Şübhəsiz, bu gün döyüş vərdişlərinə dərindən yiyələnməklə bu mühüm tapşırığın öhdəsindən bacarıqla gələcəklər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**



# Böyük qürur hissi ilə xidmət edən oğullar

*Bu gün hərbi qulluqçularımız torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır, düşmənin istənilən hiylə və təxribatının qarşısını ləyaqətlə alırlar. Xatırlayırsınızsa, avqustun 26-da Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki bölmələrindən birində düşmənin pilotsuz uçan aparatı hərbi qulluqçularımız tərəfindən məhv edilmişdi. Təbii ki, buna da hərbi qulluqçularımızın ayıq-sayıqlığı və peşəkarlığı nəticəsində nail olunub.*

Yenə yolumuzu mərd ərənlərin xidmət apardığı uca zirvələrə salmışıq. Bura düşmənin pilotsuz uçan aparatının məhv edildiyi mövqelərimizdən biridir. Qartalın belə qanad saldığı bu məkanlarda xidmət edən şəxsi heyətin yüksək nizam-intizama və döyüş qabiliyyətinə malik olması hər birimizi daha da qürurlandırır.

Qonağı olduğumuz bölmədə zabitlərdən Namiq Qədimov, Fuad Abbasov, Səbuhi Nəcəfov, Elvin Hüseynov və başqaları şəxsi heyətin peşəkarlığı və döyüş qabiliyyətinin artırılması işini yüksək səviyyədə qurmağa çalışırlar. Çünki hər bir zabitin tabeliyində nümunəvi xidməti ilə seçilən, ayıq-sayıq xidmət aparan əsgərlərin olması həmin bölmədə aparılmış məqsədyönlü tədbirlərin bəhrəsindən xəbər verir. Deməli, keçirilən məşğələ və təlimlərdə şəxsi heyətin peşəkarlığı, döyüş ruhu da formalaşır ki, bu da düşməni həmişə qorxu içində saxlayır.

Postlarda ayıq-sayıq döyüş növbətçiliyi aparan əsgərlərimizin səsləndirdiyi fikirlər hər birimizi həm qürurlandırır, həm də qələbəyə olan inamımızı daha da artırır. Əsgərlərdən Mahir Bağırov, İlham İbrahimov, Eltun Məmmədov, Asim Zeynalov, Natiq Valehov, Kamran Fərzəliyev, Məhəmməd Nadirov, Tural Əhmədov nümunəvi xidmətləri ilə seçilirlər. Həmçinin Raqif Bayramov, Firdovsi Allahverdiyev, Süleyman Əhmədov, Süleyman Aynayev, Həmid Qafarov, Ziyəddin Əliyev kimi əsgərlərin də hər biri ölkəmizin müxtəlif bölgələrindən olsalar da, onları Vətənə ləyaqətlə xidmət etmək amalı birləşdirir. Bir-birilərini hərbi xidmətdə tanıyan bu əsgərlər dostluqdan da möhkəm olan qardaşlıq hissləri ilə xidmətlərini davam etdirirlər. Axı onların bir şüarı var: "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün!"

Məlumat üçün qeyd edim ki, mövqelərimiz üzərində kəşfiyyat aparmağa cəhd edən düşmənin pilotsuz uçan aparatını məhv etmiş qəhrəman əsgərimiz Emin Əliyevdir. 1997-ci ildə Şərur rayonunun Tumaslı kəndində anadan olmuş Emin Əliyev həmişə nümunəvi xidməti ilə seçilib. Özündən 6 yaş böyük qardaşı Vüsal Əliyev də zabit kimi Silahlı Qüvvələrimizdə xidmət edir. Aprel döyüşlərinin iştirakçısı olan qardaşını özünə nümunə bilən Emin Əliyev düşmənin pilotsuz uçan aparatını məhv etməklə qardaşının davamçısı olduğunu sübut edib.

- Avqustun 26-da əsgər yoldaşım Səbuhi Əhmədzadə ilə birlikdə döyüş növbətçiliyi aparırdıq. Müşahidə zamanı düşmənin pilotsuz uçan aparatını aşkar etdik və bu barədə dərhal komandirə məlumat verdik. Komandir isə "vur" əmri verdi və mən onu ilk atəşlə vurub yerə saldım, - əsgər Emin Əliyev söhbət zamanı bildirdi.

Düşmənin pilotsuz uçan aparatını məhv edən Emin Əliyev Azərbaycan Respublikası Müdafiə nazirinin 5 sentyabr 2016-cı il tarixli əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.



- Çox qürurluyam ki, verilən döyüş tapşırığını uğurla icra etmişəm, - əsgər Emin Əliyev dedi. - Hər bir hərbi qulluqçunun arzusunda olduğu təltif və mükafatlara layiq görülməyim mənə böyük bir stimul verib. Mülki həyatda da hər işdə və əməldə Vətən üçün çalışacağam.

İnanırıq ki, xidmət müddətini başa vurmaqda olan qəhrəman əsgərimiz mülki həyatda da nümunəvi gənc kimi cəmiyyətdə özünə hörmət qazanacaq, valideynlərinə həmişə başucalığı gətirəcək.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına gəldikdə isə ixtiyarındakı avtomobillə sıldırımlı yollarla bizi uca zirvələrə doğru aparan Tural Salehov, qətiyyəti ilə düşmənin canına qorxu salan Vaqif Vəlizadə, Vətənə bağlı olduğu üçün müvafiq kursdan sonra xidmətini davam etdirən Fərid Alışanov komandir və rəislərin ən yaxın köməkçiləri hesab edilirlər.

Həmişə olduğu kimi, bu dəfə də ön xətdəki bölmələrimizdən birində dağ vüqarlı ərənlərin ayıq-sayıq döyüş növbətçiliyi apramalarının şahidi oldum. Təbii ki, cəsur döyüşçülərimizin səngərlərdə apardıqları nümunəvi xidmət bir vətəndaş kimi hər birimizə böyük qürur və fəxr hissi yaşadır.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Aydın ORUCOVUNDUR**

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb



NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərmək üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 50 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin



90 hərbi qulluqçusu, 2 hərbi həkimi və mühəndis-istehkam ixtisası üzrə 2 zabiti Əfqanıstandakı missiyada iştirak edir.

# Topçular

*<u>"N" hərbi hissəsində döyüş təlimində fərqlənənlərdən söz düşəndə polkovnik-leytenant Mənsur İbadov bildirdi ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Qəzənfər Mahmudovun komandiri olduğu heyət birincilər sırasında qarşıya qoyulan tapşırığı yerinə yetirib. "Buna görə də komandanlıq tərəfindən mükafata layiq görülüb. Vətənə xidməti hər şeydən uca tutan Qəzənfər həmişə döyüş tapşırıqlarına əməl etməyə çalışır."</u>*



Kiçik çavuş Qəzənfər Mahmudov Samux rayonundandır. Əsgəri xidmətini başa vurduqdan sonra hərbi xidmətini davam etdirmək qərarına gəlib. Bu istəklə də yuxarı komandanlığa müraciət edib. Xeyli vaxtdır ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi "N" hərbi hissəsində xidmətini davam etdirir. Vətənpərvər, cəsarətli, nizam-intizamlı olmaqla, silahdaşlarını da buna sövq edir. Komandanlıq tərəfindən dəfələrlə fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülüb. Sonuncu keçirilən döyüş atışlı təlim də onun üçün uğurlu olub. Qarşıya qoyulan döyüş tapşırığına müvəffəqiyyətlə əməl etməklə öncüllər sırasına çıxıb. Kiçik çavuş Qəzənfər Mahmudov deyir:

- Bir müddətdir ki, artilleriyaçılar sırasında xidmətimi davam etdirirəm. Kifayət qədər təcrübə toplamışam. Qazandığım uğurlara görə səriştəli, qabiliyyətli komandirlərimə minnətdaram. Son illər ordumuza göstərilən yüksək qayğı, diqqət hərbi qulluqçuları Vətənə, xalqa dərindən bağlayır. Vətənpərvərlik hissini gücləndirir. Aprel döyüşlərində artilleriyaçıların göstərdikləri rəşadət bizi torpaqlarımızın tamamilə işğaldan azad olunmasına ruhlandırıb. Çalışacağıq ki, böyük qələbənin qazanılmasında hər birimiz fəal iştirak edək.

Təlimdə fərqlənən heyətin digər üzvləri də Vətən qarşısında müqəddəs borclarını şərəflə yerinə yetirənlərdir. Onlar bildirdilər ki, ata-babalarımızın qəhrəmanlıq yolunun davamçıları həmişə olub. Tarixi ənənə davam edir. Qarabağ döyüşlərində yüzlərlə qəhrəman oğullar şəhidlik zirvəsinə ucaldı. Xalqımız onlara həmişə böyük ehtiram göstərir, xatirələrini əziz tutur. Aprel döyüşləri xalqımızın qəhrəmanlıq tarixinə yeni səhifələr yazdı. Qəhrəman oğulların yüzlərlə, minlərlə davamçıları var.

Kiçik çavuş Məhəmmədəli Kərimli də belə oğullardan biridir. Bir neçə aydır ki, Vətən qarşısında övladlıq borcunu yerinə yetirir. Manqa komandiri kimi vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Vətənə xidmətdən yüksək qürur hissi keçirdiyini bildirən kiçik çavuşun ən böyük istəyi işğal altında olan torpaqlarımızın azad edilməsində iştirak etməkdir.

Bu məqsədə görə də silahdaşları ilə birgə döyüş təcrübələrini artırmağa çalışırlar. Təlimlərdə qazandıqları nəzəri bilikləri məharətlə nümayiş etdirirlər. Əsgərlər Bəylər Muradov, Elmar Həsənov, Kamran Mehdiyev də bacarıqlı və cəsarətli artilleriyaçılar kimi tanınırlar.

Gördüklərimiz, eşitdiklərimiz deməyə əsas verir ki, artilleriyaçılar Vətən uğrunda Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hər an hazırdırlar.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Oktyabrın 9-dan 15-dək Minsk şəhərində (Belarus) "Təlimlərin planlaşdırılması və icra edilməsi" mövzusunda kurs keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

* * *

***<u>11 oktyabr 2016-cı il.</u>***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 17 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Əks-səda*

# Ömür Vətən üçün yaşanılmalıdır

*<u>Atəşkəs dövründə yaşayan bir vətəndaş olaraq Müdafiə Nazirliyinin saytını davamlı izləyirəm. Sentyabrın əvvəllərində saytda yerləşən "Azərbaycan Ordusu" qəzetində oxuduğum "Ana harayı" adlı məktub ruhumu titrətdi. Neçə gündür bu harayı nə unuda, nə də qəlbimin dərinliklərində saxlayacaq bir yer tapa bilirəm. Bu ah-fəryad neçə gündür bir ana, bir müəllim olaraq odsuz-ocaqsız yandırır məni. Boğazımda düyünlənən qəhər kimi aldığım nəfəsə ortaq olur.</u>*



Bəzən yaşadığı çətinliklər insanı nə qədər üzüb incitsə də, daxilindəki "mən"i məhv edib, xarakterini dəyişmir. Məktubu oxuduqdan sonra düşündüm ki, o ana yenə də bir müəllim kimi davranıb. Bu dərdin heç kəsin başına gəlməməsi üçün çəkdiyi iztirabları, ağrı-acıları bizlərlə bölüşüb. Oğlunun heç kimi günahlandırmayaraq bitirdiyi həyatının sonradan ataanasına, yaxınlarına necə bir utanc yaşadacağını az da olsa göstərib. Bu utancverici ölümün təkrarlanmaması üçün yazıb bu məktubu.

Vətən, torpaq uğrunda canından keçən bir oğulun, şəhid anasının Allah qatında da, cəmiyyətimizdə də çox yüksəkdə olduğunu yazıb. Daim vətənpərvər şagirdlərinin uğurları ilə sevinən müəllim bu gün ana olaraq özünə veriləcək ad tapmır, xəcalətindən məktubda adını belə silib.

Oğlunun dəfn mərasimi ilə bağlı ananın təəssüratlarını oxuyarkən isə göz yaşlarıma mane ola bilmədim. Təsəlli olacaq söz tapa bilmirəm. Oğula səslənirəm: bu idimi Vətənin, torpağın, valideynlərin, xalqın qarşısındakı borcun? İllərdir düşmən tapdağı altında od tutub yanan torpaqlarımızı, ruhları Qələbə gününə kimi rahatlıq tapmayan şəhidlərimizi, məktəbdə hər dəfə anılanda dırnaqlarınızın ovuclarınızın içini diddiyi Xocalı faciəsini, sənin barmağına batacaq tikanın ürəyinə batmasını istəyib, ömrünü ömrünə qurban deyən ananı, əsgər atası olmasıyla qürurlanan atanı heç düşünmədinmi?.. Ay insafsız, diri gözlü öldürdüyün valideynlərin nədə təsəlli tapsınlar indi?!.

Düşünürəm ki, bir dərdin ağırlığını hiss etmək üçün bir anlığa o dərdi özünkü bilmək kifayət edir. Bu dərd isə artıq günlərdir ki, mənim bütün varlığıma hakim kəsilib. Azərbaycan dili və Ədəbiyyat fənnini tədris edən bir müəllimə olaraq indi həmişəkindən daha çox xalqımın qəhrəman oğullarının qorxmazlıq, mərdlik, dözümlülük kimi hisslərinin başında ən önəmli yer tutan, uğrunda qanlar tökülüb, canlar verilən Vətən, torpaq sevgisinin üzərində dayanır, bu sevginin cəmiyyətimiz üçün dəyərli olduğunu bildirirəm. Vətən sevgisinin heç bir sevgi ilə müqayisə olunmayacağını Mübarizin, Samidin, Yusifin, Fəridin, Çingizin və onlar kimi yüzlərlə qəhrəman, igid oğulların timsalında göstərirəm. Bir müəllim olaraq çox istərdim ki, bu müraciət məktəblərə də paylansın. Yeniyetmə - məktəbli də bilsin ki, ömür Vətən üçün yaşanılmalıdır.

**Sevinc KƏRİMOVA,**
**Binəqədi rayon**
**301 saylı orta**
**məktəbin müəllimi**

Ordu və cəmiyyət

# Vətəni belə sevərlər!

Aylar keçsə də, o məqamı unuda bilmirəm. Unutmaq mümkün deyil...

Mayın sonlarıydı. Dərs ili başa çatmışdı. Sahil parkında gəzişənlərin söhbəti çəkdi məni. Məzun olduqlarını hiss etmək çətin deyildi. Ayaq saxladım. Təbiətin yazında yay havasıydı - bürküydü. Biçimsiz bürkü nə onlara təsir eləyirdi, nə də mənə.

- Mən imtahan verməyəcəm, hərbi xidmətə gedəcəm, - sarıyanız oğlan deyirdi. Kimsəni inandırmağa çalışmırdı. Tay-tuşları, bəlkə də sinif yoldaşları heç nə soruşmurdu. Söz sözü necə çəkmişdi, bu mətləb onların söhbətinə necə hopmuşdu, bilmədim.

- Apreldə hərbi komissarlığa getmişdim. "Şagirdsən, hərbi xidmətə çağırıla bilməzsən", - dedilər. İndi ki, şagird deyilik. İndi məzunuq. Mən imtahanı səngərdə verəcəm. Bu imtahan Vətənə sevgimin imtahanı olacaq. Aprel döyüşlərinin iştirakçılarının sırasında olacam, - sarıyanız oğlanın səsində dönməz bir istək vardı. Bu istək o qədər doğma, o qədər cazibədarıydı ki! Bu istək mənə şagirdim olmuş Etibar Namazovu xatırlatdı. 1991-ci ildə o da hərbi xidmətə getmək üçün çox canfəşanlıq eləmişdi. Sonda istəyinə çatmışdı. Qazançı kəndində mərdliklə döyüşmüşdü. Sonralar "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdu...

Xəyalən o oğlanı hərbi xidmətə yola düşən gördüm, ata-anasının onu qürrəylə uğurladığını görürdüm, onu yola salanlar sırasında müəllimlərini görürdüm. Xəyalımda onu hərbi geyimdə, döyüş növbəsində görürdüm...

...Söhbətləşirdik. Nədənsə çəkinirdilər. Səmimiyyət hər şeyi yoluna qoydu. Sarıyanız oğlana müraciətlə, "Sənin kəlmələrinə görə ayaq saxladım..." - dedim. Maraqla üzümə baxdı, yəni hansı kəlmələri deyirsən.

- Qəbul imtahanı vermək, universitetlərdən birinə qəbul olmaq istəmirsən, hərbi xidmətə getməyi qərara alıbsan.

Alnını ovuşdurdu. Yanaqlarını incə bir təbəssüm bürüdü. İnam, inad, qətiyyət rəngli təbəssümüydü:

- Bəli, əsgər olacam. Aprel döyüşlərində iştirak etmiş əsgərlərlə bir sırada olmaq istəyirəm. Olacam da...

Bu dönməz istəyə, bu dönməz inama, bu dönməz qətiyyətə necə bağır basmayaydım?

Yoldaşları dedilər ki, Rəşad riyaziyyatı, fizikanı gözəl mənimsəyib. Müəllimlərimiz onun uğur qazanacağına əmindir. Arzuladığı universitetə qəbul ola bilər. Ancaq istəmir.

Söhbətimiz o qədər səmimi, o qədər şirin oldu ki, hansı məktəbin məzunu olduğunu, soyadını soruşmağı unutdum; yeniyetmənin dünyaduyumu məni çox duyğulandırmışdı, çox. Mənə elə gəlirdi ki, Şuşadayam, Cıdır düzündə çiçək dərirəm, dərdiyim çiçəkləri əsgərlərimizin gəlişinə sərirəm, İsa bulağının "Heyratı"sına qulaq kəsilmişəm...

- Aprel döyüşlərində şəhid olanların dəfnini gördüm, şəhid oğulların analarının kirpiklərində donan göz yaşlarını gördüm, dəfndə polkovnik Abdulla Qurbaninin dediyi kəlmələri eşitdim. Hərbi xidmətə getməyi onda qərara aldım...

Hər kəlməsi mənə könül xoşluğu verən, düşüncələrimi kövrəldə-kövrəldə sabahlarımıza ad eləyən sarıyanız oğlan Nazim Hikmətin "Mən yanmasam, sən yanmasan, biz yanmasaq..." - misralarını xatırlatdı - vermədiyim, verə bilmədiyim suala cavab kimi. Kimsə onu səslədi. Sağollaşıb uzaqlaşdı...

Şəhidlərin dəfnində nələr eşidib Rəşad? - milyonların eşitdiklərini: Vətən müqəddəsdi, Vətəni qorumaq vətəndaşlıq borcudu, Vətən üçün doğulmuşuq, Şəhidlər ölməz, Vətən bölünməz, Vətən üçün ölümə getməyi də bacarmalıyıq...

Rəşad riyaziyyatçı ola bilərdi, mühəndis ola bilərdi - əsgər oldu. Qəbul imtahanı vermədi, Vətən sevgisi imtahanı verir. Qalib ordunun əsgəri kimi tərxis olunacaq, qəbul imtahanına qazi kimi gedəcək...

... Rəşad indi əsgərdi, səngərdədi...

İndi döyüş növbəsindədi Rəşad. Onunla səngərdə də görüşmək; söhbətləşmək mənə böyük könül xoşluğu verərdi. Kaş o təsadüf olaydı. Onda Rəşad haqqında komandirlərinə də, əsgər yoldaşlarına da bir mətləbdən danışardım. Sevinclə, qürurla "Vətəni belə sevərlər!" - deyərdim. "Rəşad kimi sevərlər, Rəşadlar kimi sevərlər!"...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

Tibb xidməti

# Ən çox həsəd aparılası peşə sahibləri





*Hərbi Dəniz Qüvvələrində olarkən bütün tələblərə cavab verən, ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş tibb məntəqəsindən qeydlər götürmək və burada hərbçilərimizə göstərilən tibbi xidmətlə yaxından tanış olmaq istədik.*

İlk olaraq terapiya bölməsinə baş çəkdik. Bölmə rəisi tibb xidməti mayoru Fatiq Həsənov son illər ərzində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin orduya qayğısı sayəsində hərbi səhiyyənin də müasir tələblər səviyyəsində qurulmasından iftixarla danışaraq bildirdi ki, bölmənin müasir tibbi avadanlıqlarla təchiz edilməsi hərtərəfli müayinə və müalicələrə imkan verir. "Xəstələrə əlverişli tibbi xidmətin göstərilməsi üçün müasir şərait və imkanlarımız mövcuddur. Bölmədə funksional diaqnostik kabinet, dəri-zöhrəvi, nevroloji, terapevtik və başqa sahələr üzrə hərbçi və mülki həkimlər fəaliyyət göstərir. Ötən illərlə müqayisədə xəstələrin sayı əhəmiyyətli dərəcədə azalıb ki, bu da əsgər və matrosların sosial şəraitinin yaxşılaşması ilə əlaqədardır. Məntəqəmizdə fəaliyyət göstərən müvafiq həkim komissiyası hərbi dənizçilərin sağlamlığının quruda və ya gəmilərdə xidmət etməyə yararlılığını təyin edir."

Tibb xidməti zabiti ilə söhbətimizdən öyrənirəm ki, əslən Zəngilan rayonunun Mincivan qəsəbəsindən olan həkim ziyalı ailəsində dünyaya gəlib. Göz açıb tərbiyə olunduğu mühitdə hər şeydən üstün tutulan Vətən sevgisi, vətənpərvərlik hissləri onun gərəkli peşə seçməsinə təsirsiz ötüşməyib. Hərbi tibb fakültəsini bitirən Fatiq həkim həm də atasının böyük arzusunu gerçəkləşdirib. Həkim kimi hərbi xidmətinə ön xətdə yerləşən hərbi hissələrdən birindən başlayıb.

Müsahibim aprel döyüşlərindən də söhbət açdı, bölmənin şəxsi heyətinin həmin günlərdə ön xətdə göndərilmək üçün hazır olmasından, həmçinin ordumuzun qazandığı qələbənin cəmiyyətimizdə doğurduğu vətənpərvərlik coşqusundan danışdı.

Hərbi həkim olmağın çox nəcib və məsuliyyətli peşə olduğunu söyləyən bölmə rəisi qarşılaşdığı maraqlı hadisələrdən biri ilə bağlı təəssüratlarını bölüşdü.

- Bir dəfə bölməyə ehtiyatsızlıq nəticəsində əlindən zədə almış əsgər gətirdilər. Ona lazımi yardımı göstərdim və bir müddətdən sonra tamamilə sağaldı. Bu hadisədən xeyli vaxt keçdikdən sonra tibb bölmələrindən birində onunla maraqlı bir görüşümüz baş tutdu. Gənc feldşerlərdən biri məni doğması kimi bağrına basdı. O, vaxtilə əlindən zədə almış əsgər idi. Göstərdiyim yardımın onda tibb sənətinə maraq yaratdığını və xidmətdən sonra tibb texnikumunu bitirərək bu sahədə işə başlamasından danışdı. Onun peşə seçimində rolum olduğuna görə daxildən iftixar hissi duydum.

Bölmənin müasir şəraiti ilə tanış olarkən diqqətimi oftalmoloq Ləyaqət Hüseynovanın xəstəsi ilə mehriban, səmimi münasibəti cəlb etdi. 2007-ci ildə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirib. Onun da bu xeyirxahlıq sənətini seçməsinin səbəbkarı atasıdır. Ləyaqət xanım deyir ki, uşaq yaşlarında atası onun əllərini ovuclarına alaraq oxşayar və deyərdi ki, əllərin əsl həkim əlləridir. "Vaxt gələcək bu əllər yüzlərlə insana şəfa verəcək," - deyərdi. Öncə mülki tibb müəssisəsində çalışıb. Bir neçə il əvvəl qardaşı Murov istiqamətində müddətli həqiqi hərbi xidmətdə olarkən möhkəm soyuqlayır. Onu elə yerindəcə bölmənin təcrübəli həkimləri müalicə edib sağaldırlar. Bu hadisə Ləyaqət xanımda hərbi tibb sahəsində xidmət etməyə sevgi və istək yaradıb. Artıq iki ilə yaxındır Vətənimizin keşiyində dayanan oğulları özünə qardaş bilən gənc həkim hərbi sahədə çalışmasından qürur duyur.



Stomatoloji kabinetdə də qızğın iş gedirdi. Stomatoloqlar Natiq Abdullayev, Hacıağa Əhmədbəyli və Süvar Məmmədova diş ağrısından əziyyət çəkən bir neçə hərbçiyə qulluq göstərirdilər.

Burada olduğum qısa müddətdə insan üçün kifayət qədər qiymətli olan sağlamlığın keşiyində dayanan nəcib, xeyirxah tibb işçilərinin əməyinə həsəd apardım.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

*Redaksiyamızın poçtundan*

# O günü mən də görəcəm



Bu məktubu ordumuzun gücünə qəlbən sevinib, sürətli inkişafından sonsuz qürur hissləri keçirərək yazıram. Prezidentimiz İlham Əliyevin söylədiyi kimi "Bizim güclü ordumuz var". Bu gün Azərbaycan Ordusunun adının dünya orduları sırasında çəkilməsi deyərdim ki, məhz Prezidentimizin orduya diqqət və qayğısının nəticəsidir. Bir ölkə vətəndaşı olaraq Ali Baş Komandanımızla fəxr edirəm.

Mən əsgər nənəsiyəm. 44 il rabitə sistemində çalışmışam. Hazırda təqaüddəyəm. Düz bir il öncə nəvəm Ədnan Cəfərovu təntənəli surətdə hərbi xidmətə yola salmışıq. Hər bir oğul övladı əsgərlik məktəbini - kişilik məktəbini keçməlidir. Bu, onların Vətən qarşısında mənəvi borcudur.

O, cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində Vətənə övladlıq borcunu şərəflə yerinə yetirir. Nümunəvi əsgər kimi komandirlərinin hörmətini qazanıb. Bu bir il müddətində dəfələrlə hərbi hissə komandanlığı tərəfindən onun haqqında təşəkkür məktubları almışıq. Aprel döyüşlərinin də iştirakçısı olub. Ədnan qız nəvəmdi. Anası onu əsgəri xidmətə yola salanda çox həyəcanlı idi. Əsgərlərin andiçməsindən sonra onlar təyin olunan hərbi hissəyə yerləşdilər. Bir müddət sonra biz Ədnanın xidmət yerinə getdik.Təsadüf elə gətirdi ki, həmin gün orduda ilk dəfə olaraq "Açıq qapı" günü keçirilirdi. Bu zaman biz valideynlər üçün imkan yarandı ki, hərbi hissənin şəraiti ilə yaxından tanış olaq. Hər tərəfi tərtəmiz görəndə ürəyimiz açıldı. Burada nizam-intizamın, hərbçilərimizin əsgərlərə göstərdikləri diqqət və qayğının şahidi olduq.

Vətənin keşiyində dayanan əsgər balalarımız üçün yaradılan əlverişli şəraitə görə Ali Baş Komandanımıza, Müdafiə Nazirliyinin rəhbərliyinə, hərbi hissə komandanlığına, şəxsən Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənova bir əsgər valideyni olaraq dərin minnətdarlığımı bildirirəm. Onu da deyim ki, son bir il ərzində keçirilən bütün "Açıq qapı" günlərində iştirak etmişəm. Təkcə Ədnanı deyil, onunla bərabər xidmət edən əsgərlərimizi də ziyarət edib, Vətənimizin etibarlı əllərdə olduğuna güvənmişəm.

Böyük Yaradanımız bütün əsgər və zabitlərimizi qorusun. Arzu edirəm ki, əsgər balalarımız hərbi xidmətlərini uğurla başa vurub sağ-salamat evlərinə - əzizlərinin yanına qayıtsınlar. Ən böyük arzum isə güclü ordumuzun sayəsində işğal altında olan torpaqlarımızın azad olunduğu günü - Qələbə gününü görməkdir. Çox inanıram ki, müdrik dövlət rəhbərimiz - Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında ata-baba oylağım olan Qubadlı da işğaldan azad olunacaq və hamılıqla elimizə-obamıza dönəcəyik.

**Svetlana RAMAZANOVA,**
**əsgər nənəsi**

## Bakıda NATO-nun mobil təlim qrupu tərəfindən seminar keçirilir

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin NATO ilə 2016-cı il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Brunssum Birləşmiş Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu tərəfindən Azərbaycan Respublikasında "Maddi-Texniki Təminatın Əsasları" mövzusunda seminar keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir müddətində NATO nümayəndə heyəti tərəfindən iştirakçılara "Maddi-Texniki Təminatın əsasları", "Əməliyyatlarda Maddi-Texniki Təminatın planlaşdırılması" və digər mövzular barədə məlumatlar verilir, eləcə də sindikatlar təşkil edilir.

Tədbirdə Silahlı Qüvvələrin müxtəlif qoşun növlərindən hərbi qulluqçular iştirak edir.

# Məğlubedilməzlik

*Oçerk*



Onunla hərbi hissələrimizdən birində keçirilən "Açıq qapı" günündə rastlaşdıq. Səhər tezdən təzə salınmış hərbi şəhərciyə hər yandan xeyli insan üz tutmuşdu. Əsgərlərin valideynləri, yaxınları, qonaqlar erkən gəlmişdilər ki, tədbirin açılışına vaxtında çatsınlar.

Hərbi hissənin ərazisi bayramsayağı bəzədilmişdi. Səliqəli və şux duruşlu bölmələr meydançada tribuna ilə üzbəüz səf-səf düzülmüşdü.

"Açıq qapı" gününə Qarabağ müharibəsi veteranları və əlilləri də qatılmışdılar. Komandanlıq hörmət göstərib onları hamıdan əvvəl içəriyə dəvət etmişdi. Cərgə ilə kölgədə düzülmüş stullarda əyləşən qonaqlardan birinin maraqlı baxışları diqqətimi cəlb etdi. Sağlamlığını itirmiş, əsa ilə hərəkət edən veteranın suyu mənə çox şirin gəldi. Düşündüm ki, haradasa və haçansa onu görmüşəm. Bəs harada?

Tanış olarkən:

- Qoca! - deyə həmsöhbətim özünü təqdim etdi. Dərhal kəsdirə bilməsəm də, sonra cəbhə yoldaşımı xatırladım. Müharibə illərində Ramazan Ömərovla bir hərbi hissədə, eyni taborda xidmət etmişdik. Daha doğrusu, mən tabor komandirinin müavini, o isə tank əleyhinə taqımın əsgəri idi. Əsgər kimi xidmətini keçmiş SSRİ ordusunda başa vurmuş ağdaşlı oğlan Vətən torpaqlarını düşməndən qorumaq üçün yenicə formalaşmaqda olan ordumuza çağırılmışdı. Ramazan ən hazırlıqlı, intizamlı döyüşçülərdən biri kimi yadımda qalmışdı. Silahdaşlarına nisbətən yaşda böyük olduğuna görə ağdaşlı əsgəri "qoca" deyə çağırardılar. Ramazan isə inciməz, zabitlərin, əsgərlərin belə mehribanlığını razılıqla qəbul edərdi.

"Qoca" 1994-cü ilin martında döyüşlərin birində ağır yaralanmışdı. Atəşkəs imzalandıqdan sonra isə hərbi xidmətdən tərxis edilmişdi. Cəsur əsgərin Laçından başlanan döyüş yolu Füzuli rayonunda bitmişdi.

Aradan 20 ildən artıq vaxt keçib, necə deyərlər, bir igidin ömrüdür. Ramazan zahirən xeyli dəyişib. Tökmə bədənli oğlan kimi yadımda qalmış veteran döyüşçünün dən düşmüş, seyrəlmiş saçları yay günəşinin qaraltdığı sifətinə müdriklik verirdi. Xoş oldu ki, 20 ildən sonra yenə cəbhə yoldaşımla hərbi hissədə görüşdük.

- Sən xeyir ola? - hal-əhval tutandan sonra ondan soruşdum.

- Oğlum burada xidmət edir, - Ramazan gülümsünüb asta səslə dedi. - Eşitdim ki, "Açıq qapı" günü keçirilir, gəldim ki, görüm nə var, nə yox.

Qarabağ müharibəsinin əlili ordudan tərxis edildikdən sonra doğma rayona qayıtmışdı. O, halal zəhmətə qatlaşıb təsərrüfatla məşğul olur, sadə bir azərbaycanlı həyatı yaşayırdı. Bir qədər keçdikdən sonra ailə qurmuş, iki övladı dünyaya gəlmişdi.

Ramazan elektrik işinə düzələrkən sevinmiş, daimi iş yeri tapdığını düşünmüşdü.

Ancaq müharibədən zədəli qayıtmış veteran döyüşçünün başı, təəssüflər olsun ki, dinc həyatda da bəlalar çəkdi. Yüksək gərginlikli elektrik xəttində qəza zamanı onun sağlamlığına ağır zərbə dəydi. Ramazan ayaqlarının hər ikisindən ciddi xəsarət aldı.

Bütün bunlara rəğmən onda həyatdan küskünlük, bədbinlik deyil, doğrudan da, möhkəm insanlara xas bir dözüm, iradə müşahidə etdim. Ən başlıcası müharibə illərində olduğu kimi, yenə qarşımda cəsur, vətənsevər, öz nikbinliyilə həyatın bütün ağrı-acılarına meydan oxuyan bir insan dayanmışdı.

- Mən oğlumu da vətənpərvər böyütmüşəm, - o, qürur hissiylə deyir. - Hərbi xidmətə çağırılanda kişi kimi xidmət etməyi Elşada tövsiyə etdim. Əminəm ki, o heç vaxt başımı aşağı etməz.

Qarabağ müharibəsi amansız burulğan kimi xalqımızın başının üstünü qəfil almış, çoxumuzun taleyində silinməz izlər buraxmışdı. O zaman cəbhədə baş vermiş uğursuzluqların əsas səbəbi kəmfürsət düşmənə havadarlarının güclü dəstəyi oldu. Dədə-baba yurdlarımızın itirilməsi hər birimizin qəlbini ağrıtmışdı. Və içimizdə bir qələbə yanğısı qövr eləməkdəydi. Aprel döyüşlərində Azərbaycan əsgəri qələbənin sevincini bizə yaşatdı. Ordumuzun bölmələrinin bu uğuruna ürəkdən sevinənlərdən biri də Ramazan Ömərov idi.

- Aprel döyüşlərində ordumuzun uğuruna həddindən çox sevindim, - deyir döyüşçü dostum. - Həyəcanla cəbhədən gələn xəbərləri gözləyirdim. Əlacım olsaydı, özüm də gedib cəsur oğullarımıza qoşulardım. Allahdan arzu edirdim ki, işğal olunmuş bütün torpaqları azad edək. Ali Baş Komandan nə vaxt məsləhət bilsə, onda ordumuza "İrəli" əmrini verəcək, digər ərazilərimiz də düşməndən təmizlənəcək. Çox arzu edirəm ki, gedib işğaldan azad edilmiş Laçını, Şuşanı görüm. Buna inamım çoxdur. Bu inamı mənə ordumuz verir. İndi, doğrudan da, fəxr etməli ordumuz var. Bunu apreldə hamımız gördük. Xoşbəxtəm ki, oğlum güclü ordumuzda xidmət edir.

Veteran döyüşçü oğlunun əsgər olmasına çox sevinir. Elşad hərbi xidmətə iyulda çağırılıb. Ramazan oğlunu yüksək ovqatla ordu sıralarına yola salıb. Avqustun 14-də hərbi hissədə keçirilən əsgər bayramına böyük həvəslə gəlib. Hərbi forma geyinmiş oğlunun səf-səf düzülmüş döyüşçülərlə birlikdə Vətənə sədaqət andı içməsindən qürur duyub. Mərasimdən sonra bütün valideynlər kimi, o da oğlunun boynunu qucaqlayıb, bir ata kimi fəxr duyub.

- Burada gördüklərim, sözün həqiqi mənasında, məni heyrətə gətirmişdi, - keçmiş silahdaşım deyir. - İstər-istəməz yadıma müharibə illəri düşür. Yadındadımı, nə qədər çətinliklərimiz var idi. Əslində, heç əməlli-başlı ordumuz yox idi. İndi Allaha şükür, görün, nə gözəl müasir hərbi hissə tikilib. Əsgərlərin şəraitinə söz ola bilməz. Ordumuz üçün ən yaxşı silah, texnika alınıb. Hətta öz ölkəmizdə də silah-sursat istehsal edilir. Bütün bunlar olduqca qürurvericidir. Bu ordunun qarşısında düşmən tab gətirə bilməz.

"Açıq qapı" günündə meydançanın arxasında hərbi hissənin balansında olan texnika və silahlar düzülmüşdü. Ramazan Ömərov onlara da baxmağı arzulayırdı. Razılaşdıq ki, tədbirin sonunda bir də oğlu ilə birlikdə görüşək.

Bir qədər keçmiş qonaqlar hərbi hissənin meydançasına dəvət edildilər və tribunanın yanında öz yerlərini tutdular. Veteran döyüşçünü də hərbi hissənin komandiri bir neçə qonaqla birgə tribunaya dəvət elədi.

"Açıq qapı" günü münasibətilə keçirilən tədbirdə zabitlər hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu barədə çıxış etdilər. Son illərdə dövlət rəhbərliyinin Silahlı Qüvvələrimizdə apardığı islahatlardan söz açdılar. Qısa zaman kəsiyində ordumuzun keçdiyi inkişaf yolundan faktlar gətirdilər.

Sonra qonaqlara bölmələrin sərəncamında olan texnika və silahlar nümayiş etdirildi. Hərbi qulluqçular həmin müasir silahların üstün cəhətləri barədə məlumat verdilər.

Tədbirin sonunda yenə görüşdük. Oğlu Elşadı da Ramazan Ömərov özü ilə birlikdə gətirmişdi.

- Hər şey gözəldi, - veteran döyüşçü ağızdolusu gördüklərindən danışmağa başladı. - Hərbi hissənin silahlarını da göstərdilər bizə. Döyüşlər gedən vaxtı bunları heç ağlımıza gətirə bilməzdik! Əsgərlərin yataq, istirahət yerləri ilə tanış olduq, komandirlər bizi yeməkxanaya dəvət etdilər. Hərbçilərə Azərbaycanın dadlı-ləzzətli yeməklərini bişirirlər. Bundan yaxşı nə ola bilər? Əsgərlərə təkcə intizamlı olmaq, layiqincə xidmət etmək qalır.

Silahdaşımın gördüklərindən məmnun qalması, mənim də ürəyimi açdı. Ramazan Ömərov sadə Azərbaycan vətəndaşı, xalqın bir nümayəndəsi idi. Ramazan Ömərovun timsalında xalqımızın öz ordusuna münasibətini gördüm.

Bir qədər sonra sağollaşıb Ramazan və Elşad Ömərovlardan ayrıldım. Amma köhnə silahdaşımla ünsiyyətin doğurduğu təəssürat uzun müddət fikrimdə dolandı. Nə yaxşı ki, ölkəmizdə belə vətənpərvər valideynlər var, deyə düşündüm. Nə yaxşı ki, belə ataların tərbiyə etdiyi oğullar ordumuzda xidmət edir. Ot kökü üstdə bitər. Belə ordu məğlubedilməzdir!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Oğullar əsgər gedir*

# Çağırışçı gənclər həqiqi hərbi xidmətə yola salınıblar



Sumqayıtda yeni istifadəyə verilən Heydər Əliyev Mərkəzində gənclərin həqiqi hərbi xidmətə yolasalma mərasimi keçirilib. Mərasim iştirakçıları əvvəlcə Mərkəzin önündə ucalan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, xatirəsini ehtiramla anıblar. Sonra Mərkəzlə tanışlıq olub.

Mərasim Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər idarəsinin rəisi polkovnik Natiq Qarayev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, o cümlədən Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi ilə bağlı görülən işlərdən, qazanılan nailiyyətlərdən danışıb. Əminliklə bildirilib ki, respublikamızın Silahlı Qüvvələrində xidmət etməyə yola düşən gənclər hərbin sirlərinə dərindən yiyələnəcək və Vətənin keşiyində ayıq-sayıq dayanacaqlar.

Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Faiq Kərimov, şəhər Ağsaqqallar Şurasının sədri Müzəffər Gülümov, şəhər Qarabağ Müharibəsi Veteranlar Birliyinin sədri Tərlan Hacızadə və digərləri hərbi xidmətə yola salınan gənclərə uğurlar arzulayıblar. Bildirilib ki, Silahlı Qüvvələrdə xidmət keçən hərbi qulluqçuların, əsgər və zabitlərin sosial müdafiəsi istiqamətində Azərbaycan dövləti tərəfindən zəruri tədbirlər görülür, onlar dövlət tərəfindən hər cür qayğı ilə əhatə olunurlar. Vurğulanıb ki, Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazda ən güclü ordudur. Natiqlər gənclərə hərbi texnikanın sirlərini mükəmməl öyrənməyi, Vətənin müdafiəsi kimi müqəddəs işdə ayıq-sayıq olmağı tövsiyə ediblər.

Tədbirdə çıxış edən çağırışçılar müstəqil Azərbaycanın əsgəri olmalarından şərəf duyduqlarını, Vətənə sədaqətlə xidmət edəcəklərini və Ali Baş Komandanın hər bir əmrinə hazır olduqlarını bildiriblər.



Sonda çağırışçı gənclər müstəqil Azərbaycanın üçrəngli bayrağını öpərək hərbi hissələrə yola düşüblər.

* * *

Qaradağ rayonundan olan çağırışçı gənclərin həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Lökbatan qəsəbəsində 1941-1945-ci illər Böyük Vətən və Qarabağ müharibələrində həlak olan rayon sakinlərinin xatirəsinə ucaldılan abidə kompleksinin önündə keçirilən tədbirdə Qaradağ rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinin əməkdaşları, ağsaqqallar, müharibə veteranları, valideynlər, çağırışçılar və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Qaradağ rayon İcra Hakimiyyəti başçısının birinci müavini Emil Abbasov müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu prosesinin sürətlə aparıldığını, qısa müddətdə nizami ordunun yaradıldığını qeyd edib. Bildirib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordumuzun hərbi qüdrətinin yüksəldilməsinə, maddi-texniki təchizatının gücləndirilməsinə, şəxsi heyətin peşəkarlığının artırılmasına xüsusi önəm verir.

Çıxış edən valideynlər övladlarını hərbi xidmətə yola salmaqdan qürur hissi keçirdiklərini söyləyib, çağırışçılara Vətənin keşiyində möhkəm dayanmağı tövsiyə ediblər.

Hərbi xidmətə yola salınan gənclər Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şərəflə qoruyacaqlarına söz veriblər.

Gənclər müqəddəs "Qurani-Kərim"in və Azərbaycan Respublikasının dövlət bayrağının altından keçərək həqiqi hərbi xidmətə yola düşüblər.

* * *

Gənclərimiz Vətən qarşısındakı müqəddəs borclarını yerinə yetirmək üçün ordu sıralarına böyük ruh yüksəkliyi və həvəslə gedirlər.

Şəki şəhərində çağırışçı gənclərin hərbi xidmətə yola salınması münasibətilə təntənəli mərasim keçirilib.

Çağırışçı gənclər əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhər icra hakimiyyəti binasının qarşısında ucaldılmış abidəsi önünə gül-çiçək düzüb, xatirəsini ehtiramla yad ediblər.

Şəhərin mərkəzindəki parkın qarşısında keçirilən mərasimdə Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki şəhər şöbəsinin rəisi polkovnik Asəf Əhmədov, ağsaqqal və ziyalılar, valideynlər çıxış edərək, müstəqil Azərbaycanın ordusunda xidmət etməyin müqəddəs və məsuliyyətli vəzifə olduğunu bildirib, gənclərə şərəflə xidmət etməyi, sağ-salamat evə qayıtmalarını arzulayıblar.

Hərbi xidmətə yollanan gənclər torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlarını bildiriblər.

Mərasimdən sonra gənclər hərbi hissələrə yola düşüblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər:

## hadisələr, faktlar

### "Metyu" qasırğası 100 mindən çox uşağı məktəbsiz qoyub



"Metyu" qasırğasının tüğyan etdiyi Haitidə 100 mindən çox uşaq məktəbsiz qalıb.

Bu barədə BMT-nin Uşaq Fondu (UNICEF) açıqlama verib. Açıqlamada ən azı 300 məktəbin qismən və ya tamamilə zərər gördüyü, bir çox məktəbin isə ailələr üçün sığınacaqlara verildiyi qeyd edilib.

BMT-nin Humanitar Yardım Koordinasiya Ofisi isə qasırğa səbəbi ilə Haitidə ən azı 900 adamın həyatını itirdiyini və 11 milyonluq əhalinin yarısının qasırğadan ziyan çəkdiyini bildirib.

### Misir rəsmiləri ölkədəki hərbi bazaların icarəyə verilməsi ilə bağlı xəbərləri təkzib edib



Misir Prezidenti Administrasiyasının rəsmi nümayəndəsi Alə Yusef bir sıra kütləvi informasiya vasitələrində Rusiyanın Misir ərazisində bəzi hərbi obyektləri, o cümlədən Sidi-Barrani şəhərindəki hərbi-hava bazasını guya icarəyə götürməsinin mümkünlüyünü nəzərdən keçirməsi barədə məlumatları təkzib edib. Bu barədə Misirin "Al-Youm 7" xəbər portalı məlumat yayıb.

Alə Yusef deyib: "Bu söhbətlərin heç bir əsası yoxdur. Misirin möhkəm mövqeyi ölkə ərazisində xarici hərbi bazaların yaradılmasını rədd edir".

### Çində dörd yaşayış binasının uçması nəticəsində ölənlərin sayı 17-yə çatıb



Çinin şərqində yerləşən Çjetzyan əyalətinin Vençjou şəhərində dörd yaşayış binasının uçması nəticəsində ölənlərin sayı 17 nəfərə çatıb. Bu barədə Sinxua agentliyi məlumat yayıb.

Hazırda hadisə yerində axtarış-xilasetmə işləri davam edir.

Bildirilir ki, uçan evlər altımərtəbəli qanunsuz tikililər olub. Yeni qurbanların qarşısını almaq məqsədilə yaxınlıqdakı altı ev də uçurulub.

### Rusiya Misirdə hərbi bazaların icarəyə götürülməsi ilə bağlı danışıqlar aparır



Rusiya hərbi obyektlərin icarəyə götürülməsi ilə bağlı Misirlə danışıqlar aparır. Misirin Sidi-Barrani şəhərində yerləşən keçmiş Sovet hərbi bazasının icarəyə götürülməsi də danışıqlar mövzusudur.

Rusiya KİV-lərinin yaydığı xəbərə görə, əgər tərəflər razılığa gələrsə, Sidi-Barranidəki hərbi bazada bərpa işləri aparılacaq və 2019-cu ildən baza hərbi-hava bazası kimi Rusiyanın istifadəsinə veriləcək.

Artıq əldə olunmuş razılaşmaya görə, Rusiya hərbi bazalar üçün avadanlığı dəniz yolu ilə daşıyacaq. Həmçinin bazada Rusiya hərbi kontingenti yerləşdiriləcək.

Sidi-Barrani şəhərində əvvəllər fəaliyyət göstərmiş hərbi baza 1972-ci ilədək Sovet hərbi donanması tərəfindən ABŞ döyüş gəmilərinin müşahidəsi üçün istifadə olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi yeniliklər, ənənələr



Gəmiəleyhinə Yaxont raketi

Gəmiəleyhinə qanadlı "Yaxont" raketi güclü atəş və radioelektron qarşıdurmalar zamanı suüstü hərbi-dəniz qruplaşmalarına qarşı mübarizə aparmaq üçün istehsal edilib. Gəmiəleyhinə kompleksin yaradılmasına 70-ci illərin sonunda və 80-ci illərin əvvəllərində başlanılıb. İlk olaraq bu kompleksin sualtı qayıqlarda, suüstü gəmilərdə, təyyarələrdə və sahil buraxıcı qurğularda yerləşdirilməsi nəzərdə tutulmuşdu. Onun əsas üstün cəhətləri horizontarxası atəş uzaqlığına, bütün uçuş sahələrində yüksək səsli sürətə malik olması və müasir radiolokasiya sistemləri üçün görünməz olmasıdır. "Yaxont" raketinin güc qurğusu özünə sürətli, qatıyanacaqlı, marşlı, yüksəksəsli dəqiq hava-reaktiv mühərrikini daxil edir. Mühərrikin çəkisi 200 kiloqram təşkil edir. Raket tuşlama sistemi ilə təchiz edilib. Radiolokasiya stansiyası "kreyser" sinifli suüstü hədəfi 75 kilometrlik məsafədən ələ keçirə bilər. Hədəfi ələkeçirəndən sonra raket radiolokasiya stansiyasını söndürür və aşağı məsafədə enmə hərəkətini həyata keçirir. Nəticədə isə radiohorizontdan çıxaraq hədəfi ələ keçirir və müşayiət edir. Onun əsas üstünlüyü tək gəmiyə qarşı "bir raket-bir gəmi" və ya "dəstə ilə" prinsipi ilə hərəkət etməkdir. Raket hücum taktikasını seçir və onun planını həyata keçirir, əsas hədəfi məhv edir, digər raketlər isə qalan gəmiləri. Raketin əsas hissəsi onun nəqliyyat-buraxıcı konteyneridir. "Yaxont" gəmiəleyhinə sahil K-300P "Bastion" kompleksində istifadə oluna bilər. Bu kompleks "Yaxont"la birlikdə müxtəlif sinifli suüstü gəmiləri və desant birləşmələrini, gəmi və aviadaşıyıcı zərbə qruplarını, tək gəmiləri və digər hədəfləri məhv etməyə qadirdir. Hər iki kompleks birlikdə müdafiəni də təmin edir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

*Könlüm şeir istəyir*

# Vətən mənə oğul desə nə dərdim...



*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Arazın şeirləri həmişə sevilə-sevilə oxunur. Çünki o şeirlər böyük sənətkarlıqla yazılıb, orada xalqın arzusu və istəyi ifadə olunub. Vətən sevgisi şairin yaradıcılığından qırmızı xətlə keçir desək, yəqin ki, fikrimizi düzgün ifadə etmiş olarıq. "...Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim" misraları isə işıq üzü görən gündən dillər əzbəridir. Oktyabrın 14-də Məmməd Araza həsr olunmuş poeziya günü keçiriləcək.*

*Dərc etdiyimiz bu şeirlər Məmməd Araz sevərlər üçün qiymətli bir töhfədir. İnanırıq ki, bu misralar yurdun keşiyində dayanan zabit və əsgərlərin könüllərini oxşayacaq, vətənpərvərlik hissləri daha da artıracaqdır.*

**"Azərbaycan Ordusu"**

## Ayağa dur, Azərbaycan!

Nə yatmısan, qoca vulkan,
səninləyəm!
Ayağa dur, Azərbaycan,
səninləyəm!
Səndən qeyri
biz hər şeyi bölə billik,
Səndən qeyri
Biz hamımız ölə billik!
Bu Şəhriyar harayıdı,
Bu Bəxtiyar harayıdı!
Hanı sənin tufan yıxan,
Gürşad boğan yurda oğul
oğulların!
Qara Çoban, Dəli Domrul
oğulların.
Çək sinənə qayaları yamaq elə,
Haqq yolunu ayağına dolaq elə,
Bayrağını Xəzər boyda bayraq elə,
Enməzliyə qalxmış olan bayrağını!
Azərbaycan, Azərbaycan,
Azərbaycan bayrağını!
Ayağa dur, Azərbaycan!
Bunu bizə zaman deyir,
Məzarından baş qaldıran
baban deyir!
Nər oğlu nər, səninləyəm!
Səninləyəm, silah tutan,
Külüngtutan, yaba tutan,
Kösöy tutan, nişanlı ər,
səninləyəm!
Səninləyəm, qız atası,
Hanı nərən, hanı səsin!
Hanı andın!
Yoxsa sən də yatmışlara,
batmışlara,
Qeyrətini satmışlara
xırdalandın!!!
Gözünü sil, Vətən oğlu,
ayağa qalx!
Üfüqünə bir yaxşı bax,
Sərhədinə bir yaxşı bax,
Sərhədinin kəməndinə
bir yaxşı bax!
Dur içindən qorxunu boğ,
Ölümünlə, qalımını ayırd elə.
Dur içindən qorxağı qov,
Dur özünü Bozqurd elə!
Bir səsindən min səs dinər,
Neçə-neçə daşa dönmüş
dinməz dinər!
Oddan bitər, qandan bitər
əyilməzlər!
Mərd oğullar - mərdliyilə
öyünməzlər!
Torpaq altda ölümlüyə
gömülməzlər.
Varım, yoxum, səninləyəm,
Azım, çoxum səninləyəm,
Şirin yuxum səninləyəm.
Yıxın məni söz atından,
Atın məni tank altına.
Əzin məni xıncım-xıncım,
Kəsmir əgər söz qılıncım,
Didin məni didim-didim,
Atın məni tank altına.
Qundaqdakı bir körpəni
xilas edim!
Neçə "səni", neçə "məni"
xilas edim.
Səninləyəm, sözü qəmli,
özü dəmli rəhbər adam!
1918-də vuruşurdu,
Danışmırdı rəncbər atan,
rəncbər atam!
Səninləyəm, haqq-ədalət,
səninləyəm,
Milli qürur, milli qeyrət,
səninləyəm!
Səpil quma, göyər yerdə,
bit qayada,
Gizli nifrət, açıq nifrət,
səninləyəm,
Oyat bizi, ey yaradan,
səninləyəm!
Ya birmərrə yatırt bizi,
Ya birmərrə oyat bizi,
Ya yenidən yarat bizi,
Ey yaradan, səninləyəm,
Səninləyəm, yatmış vulkan,
Səninləyəm!
Ayağa dur, Azərbaycan,
Səninləyəm!

## Vətən mənə oğul desə

Buyruqlara sığışmayan inaddım,
Çox qanadlar yorub salan qanaddım.
Ulduzlara yumruq düyüb, daş atdım:
Nizamlara baş əyməzdi nizamım.

Qayaları haçalardı qüdrətim,
Buludları parçalardı qüdrətim,
Şimşəkləri qıçalardı qüdrətim,
Yorulanda nur mizrablı ozanım.

O selablar seləliyim yalanmış,
Ötən günlər çalağanmış: çalanmış.
Bircə kövrək xatirələr qalanmış,
Onu da ki, ha çevirim, ha sanım...

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim,
Xəzanımdır, xəzanımdır, xəzanım.

Dünənimi döşdən asan deyiləm,
Dünənimə qəbir qazan deyiləm.
Ürəyimsiz kəlmə yazan deyiləm,
Nə qədər ki, öz əlimdir yazanım.

## Mənim yurdum

Mənim yurdum -
qəhrəmanlar diyarıdır.
Mərd insanlar diyarıdır.
Öz baxtının xoş gününü
Öz əliylə yaradanlar diyarıdır.
Kainatın milyon illik arxivindən
ulduzları
oyadanlar diyarıdır
Mənim yurdum -
Qəhrəmanlar diyarıdır!

Mənim yurdum -
Torpağında nur əkənlər,
Nur biçənlər diyarıdır.
Mənim yurdum -
Neçə dəfə
Qanlı lava dənizindən
Sağ keçənlər diyarıdır.
Mənim yurdum -
Qayaları minalanmış
Dağ keçənlər diyarıdır.
Mənim yurdum -
Mərd oğullar diyarıdır.

## Əsgər məktubu

Əsgər məktubları alıram hərdən,
Məhəbbət, cəsarət, dəyanət dolu.
Neçə tərifçinin təriflərindən
Bir əsgər məktubu gərəkli olur.

Əsgər nə istəyir? -
Bir təzə nəğmə,
Nəğməsiz darıxır əsgər tüfəngi.
Bir əsgər qəlbində qopan zümzümə
Bir Vətən daşını isidəcəkdir.
Bir əsgər yazır ki: "sərhədçiyəm mən.
Əlimdə tüfəngdir,
Dilimdə şeir
İnamla, qeyrətlə qorunur Vətən,
Bunlarsız silahlar lal-kardır" - deyir.

Bir nəğmə əsgərin dodaqlarından
Sərhəd küləyinə həmsöhbət olar.
Bir nəğmə əsgərin barmaqlarında,
Tətiyə söykənən cəsarət olar.

Əsgər məktubunda torpaq göyərir,
Meşələr uzanır üfüqlərəcən.
Əsgər məktubundan bir dağ göyərir -
Ətək də Vətəndir, zirvə də Vətən...

Əsgər məktubunda quş səksəkəsi,
Əsgər məktubunda qaya təmkini.
Bir nişan həsrəti,
Bir toy həvəsi
Hər sətrin keşikçi nidası kimi...

Əsgər məktubunun cavabı çətin,
Əsgər məktubunun cavabı asan.
Yetişməz əsgərə söz məhəbbəti,
Yetişməz, sözlərin əsgər olmasa.

# İdman

## Cüdoçularımız Daşkənd Qran-prisini 2 medalla başa vurublar



Özbəkistanın paytaxtı Daşkənddə cüdo üzrə Qran-pri yarışlarına yekun vurulub.

Azərbaycan milli komandası mötəbər turnirdə növbəti medallarını qazanıb.

Turnirdə 100 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Cəlil Şükürov ilk görüşündə meydan sahibi Erkin Doniyrov üzərində qələbə qazanıb. O, yarımfinalda Türkmənistan təmsilçisi Sahidzhol Saidova qalib gələrək finala yüksəlib. C.Şükürov həlledici görüşdə isə Özbəkistan cüdoçusu Soyib Kurbonova məğlub olaraq yarışı gümüş medalla başa vurub.

Daha bir təmsilçimiz - Rüfət İsmayılov (81 kq) milli komandamıza bürünc medal qazandırıb.

## Azərbaycan döyüşçüsü MMA üzrə Avropa çempionu olub



Azərbaycanın və "Qəbələ" idman klubunun üzvü Alim Nəbiyev MMA (qarışıq döyüş növləri) üzrə Avropa çempionu olub.

İdmançımız bu titulu Çexiyanın paytaxtı Praqanın "O2" İdman Kompleksində qazanıb.

W5 versiyası üzrə 77 kiloqram çəki dərəcəsində Avropa çempionunun adına "Əfsanələr Praqada" adlı döyüş gecəsində aydınlıq gəlib. Titul uğrunda mübarizədə A.Nəbiyev çexiyalı Vlado Moravçiklə qarşılaşıb. Beş raunddan ibarət döyüşün yekununda təmsilçimiz hakimlərin rəyi ilə qitə çempionu tituluna layiq görülüb.

## Azərbaycan idmançısı qrapling üzrə dünya çempionatında bürünc medal qazanıb



Belarusun paytaxtı Minskdə qrapling üzrə dünya çempionatı başa çatıb.

Yarışda 700-dək idmançı qalib adı uğrunda mübarizə aparıb.

"Neftçi İdman Klubu"nun yığma komandanın heyətində təmsil olunan yetirməsi, 84 kiloqram çəki dərəcəsində çıxış edən Hacımurad Purtiyev yarışda böyük əzmkarlıq nümayiş etdirib və dünya çempionatının bürünc medalını qazanıb.

## Samboçumuz dünya çempionu olub



Rumıniyanın Ployeşti şəhərində yeniyetmələr və gənclər arasında sambo üzrə dünya birinciliyi keçirilib.

Çempionatda yeniyetmələrin mübarizəsində Yaşar Nəcəfov (56 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Milli komandamız turnirdə baş məşqçi Yaqub Abdullayevin rəhbərliyi altında yarışıb.

## Masallıda yunan-Roma güləşi üzrə rayon birinciliyinin qalibləri məlum olub



Masallı rayonunun Ərkivan qəsəbəsində 18 oktyabr - Dövlət Müstəqilliyi Gününə həsr olunmuş yeniyetmə və gənclər arasında yunan-Roma güləşi üzrə rayon birinciliyi keçirilib.

Rayon gənclər və idman idarəsi, təhsil şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən və iki gün davam edən yarışda 11 çəki dərəcəsində 62 yeniyetmə və gənc qələbə uğrunda mübarizə aparıb. Qaliblərə diplomlar və hədiyyələr verilib.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 528
Nüsxə 4650